UOT: 101.1:316

# SOSİAL KONFLİKTLƏRİN FƏLSƏFİ MAHİYYƏTİ, STRUKTURU VƏ FUNKSİYALARI

**A.Ə.AŞİROV**
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***yemen71@mail.ru***

*Məqalədə konflikt anlayışının sosial-fəlsəfi mahiyyətinə dair müxtəlif yanaşmalar təhlil olunur. Qeyd edilir ki, konfliktlər sosial proseslərin mühüm tərkib hissəsi olmaqla yanaşı, həm də onların inkişafının zəruri şərti kimi çıxış edir. Eyni zamanda konfliktlərin cəmiyyətdə subyektiv və obyektiv ziddiyyətlərin həllində oynadığı funksiyalar aşkarlanır.*

*İşdə həmçinin, sosial konfliktlərin şəxsiyyətlərarası, iqtisadi, sosial-siyasi, millətlərarası və dövlətlərarası formalarının tədqiqinə geniş yer verilir.*

**Açar sözlər:** sosial konflikt, struktur, funksiya, ziddiyyətlər, qarşıdurma, barışıq

Konfliktlər hər hansı sosial strukturda obyektiv labüd proses olub, ictimai inkişafın zəruri şərtidir. Konfliktlərin və onların həllində konsensusun, barışıq və qarşıdurmanın labüd olduğu istənilən cəmiyyətdə konfliktin əsasında subyektiv və obyektiv ziddiyyətlər durur. Bildiyimiz kimi, konfliktin mənbəyi cəmiyyətin sosial strukturunu təşkil edən ayrı-ayrı sinif, sosial təbəqə, qrup və fərdlərin müxtəlif maraq və mənafelərinin toqquşması zəminində meydana çıxır.

Azərbaycan tədqiqatçısı R.Məmmədzadə konfliktə mürəkkəb sosial və psixoloji hadisə kimi yanaşaraq konfliktin məzmununu, mahiyyətini müəyyənləşdirən aşağıdakı amilləri göstərir: 1) konflikt tərəflərin toqquşması kimi izah olunur. Belə olduqda təbiətdə, cansız aləmdə də konfliktlər mümkündür; 2) konflikt həm də əks tərəflərin, maraqların, dünyagörüşlərinin, opponentlərin, münasibətlərin və ya əlaqəli fəaliyyət subyektlərinin toqquşması kimi izah edilir. Bu zaman əlaqəli fəaliyyətin konfliktinin subyekti ya ayrıca insandır, ya da insanların müxtəlif qruplarıdır [14].

Konflikti sosioloji nöqteyi-nəzərdən tədqiq edən bəzi tədqiqatçılar onu fərd və cəmiyyət, maraq və məqsədlər arasında qarşıdurmanın müxtəlif formaları kimi dəyərləndirirlər. Məsələn, Qərb tədqiqatçısı K.Boulding konfliktin «ümumi nəzəriyyəsini «yaratmağa cəhd etmiş və iddia etmişdir ki, bütün konfliktlərin elə bir ümumi ünsürləri və ümumi inkişaf nümunələri var ki, məhz bu ümumi cəhətləri öyrənməklə konflikt fenomenini onun hər hansı spesifik təzahüründə təsəvvür etmək olar» [9, 308]. Müəllifin bu

fikri ilə o şərtlə razılaşmaq olar ki, konfliktin ümumi mahiyyəti, ən ümumi ünsürləri, strukturu, əmələgəlmə səbəbləri, inkişaf mərhələləri, növləri və funksiyaları hərtərəfli araşdırılsın. Yalnız bu halda konflikt fenomeni haqqında geniş məlumat əldə etmək olar. Lakin bəzi tədqiqatçılar bütün konfliktlər vahid ümumi sxemdə birləşdirməyin əleyhinə çıxırlar. A.Rappoport bunu bəzi konfliktlərdə ziddiyyətlərin mövcudluğu, digər konfliktlərin kompromislə nəticələnməsi ilə izah edir.

Yeri gəlmişkən, sosial konfliktlərin tipləri ilə bağlı tədqiqatçılar arasında da demək olar ki, yekdil rəy yoxdur.

Kofliktoloji ədəbiyyatdan bizə yaxşı bəllidir ki, adətən konfliktin yaranmasının obyektiv və subyektiv amilləri fərqləndirilir. Əksər tədqiqatçılar qarşılıqlı münasibətdə olan əks tərəflərin fəal və ya potensial imkana malik olmasını, konfliktli tərəflərin mövqeləri, mənafeləri, tələbatları və məqsədlərinin qarşıdurmasını qeyd etmiş, eləcə də sosial konfliktin, sosial ziddiyyətlərin təzahür forması, konfliktin çoxmilli, çoxelementli, müxtəlif tərkibli sosial hadisə olması fikrinə gəlmiş, ona sistemli yanaşmağa cəhd etmişlər. Bu mənada Azərbaycan tədqiqatçısı Üzeyir Şəfiyevin bu fikirləri ilə razılaşmaq olar: «Hər bir konfliktə sistemli yanaşma o deməkdir ki, konfliktin obyekti və predmetinə daxil olan bütün elementlər (dəyərlər, mənafelər, məqsədlər, maraqlar, sərvət, ərazi, hakimiyyət, sosial vəziyyət, imtiyazlarda və s. təzahür edən) konfliktin subyektini (açıq və potensial) xarakterizə edən bütün keyfiyyətlərin – psixoloji, əxlaqi, mədəni, dini, təhsil və s. dərəcələri qarşılıqlı nüfuzetmə şəraitində öyrənilməlidir» [19, 35]. Belə ki, yalnız sistemli yanaşma nəticəsində konfliktin məzmununu tam və hərtərəfli dərk etmək mümkündür.

Konfliktin müxtəlif dillərdə etimoloji mənası toqquşma, ixtilaf, çəkişmə, mübahisə, münaqişə deməkdir. Lakin konfliktin etimoloji mənası onun tam mahiyyətini aça bilmir. Bəzi tədqiqatçılar münaqişəni, toqquşmanı konfliktdən fərqləndirir, bəziləri konflikti daha geniş mənada, hətta onun canlı və cansız təbiətdə mövcudluğunu da qəbul edirlər. Lakin bizcə, təbiətdə, canlı və cansız aləmdə konfliktdən daha çox ziddiyyətlər özünü göstərir. Bu səbəbdən də, əksər hallarda sosial konflikti tərəflərin açıq qarşıdurması, maraqların açıq toqquşması kimi səciyyələndirirlər.

Konfliktoloqlar əsasən sosial fəlsəfədə konfliktlərin aşağıdakı tiplərini təsnif edirlər. Konfliktləri təzahür sahələrinə görə iqtisadi, siyasi, millətlərarası, məişət, mədəni, sosial (sözün dar mənasında) konfliktlərə ayırırlar [4]. Bundan başqa 1) şəxsiyyətlərarası münaqişələr; 2) pedaqoji təhsillə bağlı münaqişələr; 3) sosial əmək münaqişələri; 4) milli-etnik münaqişələr; 5) hakimiyyət amili ilə bağlı olan münaqişələr; 6) beynəlxalq və dövlətlərarası münaqişələr; 7) siyasi münaqişələr tipləri də məlumdur [15]. Bizcə, sonuncu bölgünü bir qədər dəqiqləşdirmək, daha dəqiq desək hakimiyyət amili ilə bağlı münaqişələri siyasi münaqişələrə daxil etmək olar.

R.Məmmədzadə isə problemə daha çox pedaqoji və psixoloji aspektdən yanaşdığından diqqəti şəxsiyyətlərarası konfliktlər, əmək konfliktləri, ailə

konfliktləri, müəllim, valideyn, uşaqlar arasındakı konfliktlərə verir [14].

A.Dmitriyev konfliktləri iştirakçıların kəmiyyətinə tənzimləmə dərəcəsinə, motivlərinə görə də təsnif edir. Konfliktlər davametmə müddətinə görə (uzunmüddətli, qısamüddətli), resurslarına (maddi, mənəvi, sosial), zaman və məkanda məhdudluq dərəcəsinə, subyektlərinə görə də fərqlənir [4, 134].

Ümumiyyətlə, sosial fəlsəfədə konfliktlərin tipologiyasi və təsnifatı problemi əsas problemlərdən biri kimi qəbul edilir. Belə ki, konfliktlərin təsnifatı onlar arasında əlaqələrin xarakterini əks etdirir və bu əsasda konfliktlər müəyyən əlamətlərə görə qruplaşdırılır.

Konfliktlərin ən geniş yayılmış təsnifatlarından biri konfliktlərin subyektlərinə görə bölgüsüdür: 1. Şəxsiyyətdaxili; 2. Şəxsiyyətlərarası; 3. Şəxsiyyət və qruplararası; 4. Qruplararası; 5. Dövlətlərarası (və ya koalisiyalararası) konfliktlər [12].

Bundan başqa konflikt insanların həyat fəaliyyətləri sahəsinə görə də təsnifatlaşdırılır. Buraya: 1) məişət; 2) ailə; 3) əmək; 4) hərbi tədris-pedaqoji konfliktlər daxildir.

Konfliktlərin obyektlərinin xarakterinə görə olan təsnifat aşağıdakılardır: 1) ehtiyatlar: 2) statuslu-rollu; 3) sosiomədəni; 4) idiomədəni konfliktlər.

Səlahiyyətlərin bölgüsü və təsir istiqamətinə görə konfliktlər aşağıdakı tiplərə ayrılır: 1) “Şaquli konfliktlər (rəis-tabe olan, yüksək təşkilat-aşağı təşkilatlararası konfliktlər)”; 2) Üfüqi konfliktlər (eyni ranqlı rəhbərlər, həmkarlararası konfliktlər)

Bunlardan başqa mövcud ədəbiyyatda olan aşağıdakı konfliktləri də unutmaq olmaz: 1) açıq və gizli; 2) konstruktiv və destruktiv; 3) qısamüddətli və uzunmüddətli; 4) realist və qeyri-realist; 5) lokal, regional və beynəlxalq konfliktlər [12, 64-65].

İctimai həyat sahəsilə bağlı təsnifata görə konfliktlər siyasi, iqtisadi, ideoloji, sosial, hüquqi, ailə məişət, sosio-mədəni konfliktlərə də bölünür. Fikrimizcə bu bölgü daha təqdirəlayiq və əhatəli bölgüdür.

Lakin konfliktoloq alim T.O.Kozirev konfliktlərin təsnifatına bir qədər fərqli yanaşır. Konfliktin motivlərindən asılı olaraq o, sosial konfliktləri üç qrupa ayırır: 1) hakimiyyət səlahiyyətləri və mövqeyinin bölgüsü ilə əlaqədar meydana gələn; 2) maddi ehtiyatlara görə; 3) mühüm həyati dəyərlərə görə yaranan konfliktlər.

Digər konfliktoloq V.H.Amelin isə sosial konfliktlərin rolu, inzibati və siyasi tiplərində müxtəlif şəxsiyyətlərarası, qruplararası, instutsional səviyyəli tərəflərin iştirak etdiyini diqqətə çatdırır [1].

Görkəmli Qərb sosioloqu və konfliktoloqu R.Darendorf konfliktlərin aşağıdakı tiplərini müəyyənləşdirmişdir: 1) əmələgəlmə mənbəyinə görə: maraqlar konflikti, dəyərlər konflikti, eyniləşdirmə konflikti; 2) sosial nəticələrə görə: uğurlu, uğursuz, qurucu (konstruktiv), dağıdıcı (destruktiv), konfliktlər; 3) miqyasına görə: lokal, regional, dövlətlərarası, qlo-

bal, mikro-, makro-, meqakonfliktlər; 4) mübarizə formalarına görə, dinc, qeyri-dinc konfliktlər; 5) istiqamətinə görə şaquli, üfüqü konfliktlər; 6) mənşəyinin xüsusiyyətinə görə: endogen (daxili səbəblərin təsiri ilə yaranan), ekzogen (xarici qüvvələrin təsiri ilə meydana gələn) konfliktlər; 7) konfliktin subyektinə münasibətə görə: həqiqi, təsadüfi, qarışıq, yalan, dəqiq olmayan, gizli konfliktlər; 8) tərəflərin istifadə taktikalarına görə- döyüş, oyun, debatlar (müharibələr) [5].

Ümumiyyətlə, R.Darendorfun təsnifatı geniş, əhatəli olduğundan konfliktlərin mahiyyətini daha dərindən dərk etməyə imkan verir.

Rusiya tədqiqatçıları Y.Q.Zaprudski, V.N.Lavrinenko və S.S.Frolov və başqalarının subyektlərinə görə isə sosial konfliktlər aşağıdakı tiplərə ayrılır:

1) Şəxsiyyətlərdaxili konflikt; 2) Şəxsiyyətlərarası (şəxsiyyət-şəxsiyyət, fərd-fərd) konfliktlər; 3) Şəxsiyyət-qruparası konfliktlər; 4) Sosial qruplararası konfliktlər; 5) Şəxsiyyət-qrup konfliktləri; 6) Şəxsiyyət-cəmiyyət konfliktləri (13).

Göründüyü kimi, burada şəxsiyyəti əhatə edən sosial mühitdə cəmiyyət arasındakı konfliktlərdən bəhs edilmişdir. Lakin bu bölgü bütün dövrlər və bütün cəmiyyətlər üçün məqbul hesab edilə bilməz.

Azərbaycan alimləri Q.Əliyev və H.Dayızadə aqonistik (barışan) və antaqonist (barışmaz) konfliktlərdən bəhs edirlər [7, 11]. Onlar düzgün olaraq göstərirlər ki, aqonistik konfliktlər həll edilməsə, bu konfliktlər antaqonist konfliktlərə çevrilə bilər. Bizcə, söhbət konfliktlərdən gedirsə, onlarda barışıqdan çox barışmazlıq, qarşıdurma üstünlük təşkil edir. Barışıq olan yerdə konfliktdən əsər-əlamət qalmır.

Rusiya tədqiqatçılardan A.J.Jeltuxin sosial konfliktlə bağlı konsepsiyasında sosial konfliktin tiplərini göstərərkən qarşıdurmanı, rəqabəti, düşmənçiliyi, qarışıqlığı, qiyamı, üsyan və inqilabı fərqləndirir və onları sosial konfliktin tipləri kimi bir-birindən fəallıq dərəcəsinə, həcminə görə ayrır [6, 144-145].

Bu mənada sosial konfliktin təsnifatı ilə bağlı olaraq S.Frolovun mövqeyi təqdirəlayiqdir. O, konflikti aşağıdakı tiplərə bölür: 1) şəxsi konflikt; 2) şəxsiyyətlərarası konflikt; 3) qruplararası konflikt; 4) məxsusi konfliktlər; 5) ətraf mühitlə bağlı olan konflikt [16, 93]. Müəllif, göründüyü kimi, konfliktləri əsasən iştirakçılara və ziddiyyətli sahələrə bölmüşdür.

Məzmununa görə konfliktlər iqtisadi, sosial-siyasi, dini, mənəvi-psixoloji növlərə ayrılır. İqtisadi zəminli konfliktlərin əsasında mənafe, maraq, məqsəd müxtəlifliyi və ya onların vəhdəti arasında ziddiyyətlər durur.

Bir qədər də konfliktlərin funksiyaları ilə bağlı. İctimai elmlərdə funksiya anlayışı latınca «functio» sözündən olub, «yerinə yetirmə» mənasında işlənir. Konfliktin funksiyası dedikdə, konfliktin cəmiyyətə, onun müxtəlif mütəşəkkil strukturlarına - sosial qruplara, təşkilatlara və fərdlərə münasibətdə yerinə yetirdiyi rol başa düşülür [12, 111].

Konfliktlərin aşağıdakı funksiyalarını göstərmək olar: konfliktin

açıq və gizli funksiyası, funksional konflikt, disfunksional konflikt, konfliktin konstruktiv və destruktiv funksiyaları.

Ümumiyyətlə, sosial konflikt cəmiyyətdə müsbət və mənfi funksiyalar yerinə yetirir. Cəmiyyət həyatında konfliktin müsbət rolu haqqında tanınmış Qərb tədqiqatçısı L.Kozer özünün «Konfliktin sosial funksiyaları» əsərində dəyərli mülahizələr irəli sürmüşdür. L.Kozerin fikrincə, konflikt sosial sistemdə dinamik bərabərliyi və qrup daxilində birliyin möhkəmlənməsini təmin etməklə stabilləşdirici kommunikativ, normativ rol oynayır [9, 11].

Açıq, demokratik cəmiyyətdə isə sosial konfliktlərin yerinə yetirdiyi müsbət konstruktiv funksiya aşağıdakılardan ibarətdir. 1. Konfliktlər ziddiyyətləri həll etməklə cəmiyyəti inkişaf etdirir. 2. Konflikltlər sabitlik funksiyasını yerinə yetirməklə sosial gərginliyin aradan qaldırılmasına səbəb olur. 3. Konfliktlər intensivləşdirici, stimullaşdırıcı amil kimi ictimai tərəqqini sürətləndirir. 4. Konflikt inteqrativ və birləşdirici rol oynayır. 5. Konfliktin həlli sosial sistemin stabilləşməsinə gətirib çıxarır. 6. Konflikt sosial qrup və ya birliklərin qüvvələr nisbətini aydınlaşdırmaq vasitəsilə daha dağıdıcı konfliktləri aradan qaldırır. 7. Konfliktlər insanlar arasında yeni ünsiyyət normalarının yaranması vasitəsi ola bilər [12, 113-114]. Göründüyü kimi, burada konfliktlərin cəmiyyətin inkişafına təkanverici amil olduğu göstərilmişdir.

Eyni zamanda sosial konfliktlər yalnız müsbət, konstruktiv deyil, həmçinin destruktiv, dağıdıcı, neqativ funksiyaları da yerinə yetirir. T.Parsons konflikti sosial sistemin dağıdıcısı, [8, 267] Z.Freyd isə cəmiyyətdə əsəb və depressiya mənbəyi kimi qiymətləndirir [17, 121]. Müasir tədqiqatçılar T.İ.Kozırev, V.P.Ratnikov, E.Mirbəşiroğlu və başqaları konfliktin aşağıdakı dağıdıcı və destruktiv funksiyalarını göstərirlər: 1. Konfliktlər çoxlu insan, maddi və mənəvi itkilərə səbəb olan zorakı metodlarla həll edilə bilər. 2. Konfliktlər qarşı duran tərəfləri – cəmiyyəti, sosial qrupları və fərdləri qeyri-stabil vəziyyətə-anarxiyaya gətirib çıxara bilər. 3. Konflikt cəmiyyətin siyasi, iqtisadi, sosial, mədəni inkişaf dinamikasını zəiflədər, ictimai inkişafın böhranına, yeni dəyər normalarının meydana gəlməsilə diktatura və ya totalitar rejimlərin bərqərar olmasına səbəb ola bilər. 4. Konflikt ictimai sistem daxilində sosial mütəşəkkilliyin və kommunikasiyaların, cəmiyyətin dağılmasına, sosio-mədəni yadlaşmaya gətirib çıxara bilər. 5. Konflikt düşmənçilik meyillərini artırmaqla cəmiyyətdə pessimist əhval-ruhiyyə və mənəviyyatın aşılanmasına səbəb ola bilər. 6. Konfliktlər yeni, daha dəhşətli və dağıdıcı təkanların əmələ gəlməsinə şərait yarada bilər. 7. Konflikt insanların həyatı və sağlamlığı üçün təhlükə yaradır. 8. Konflikt sistemin təşkiletmə səviyyəsinin, nizam-intizam və fəaliyyətin səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarır [10, 21].

Konfliktoloji ədəbiyyatla yaxından tanışlıq bizə deməyə əsas verir ki, konfliktlərin yerinə yetirdiyi funksiyaların konstruktiv və ya destruktiv

kimi qiymətləndirilməsi cəmiyyətdəki dəyərlər, normalar, maraqlar sisteminin vəziyyətindən asılıdır. Bu funksiyaların hüdudlarının müəyyənləşdirilməsi də mürəkkəb məsələdir. Konfliktlərin həlli heç də iştirakçıların maraqlarının tamamilə təmin olunması demək deyildir. Buna görə də belə bir şəraitdə konfliktin mütləq həllindən söhbət gedə bilməz, konfliktin konstruktiv funksiyası öz yerini destruktiv funksiyaya verə bilər. Bu mənada konfliktin pozitiv və neqativ funksiyalarına münasibətdə birmənalı fikir yürütmək, onun qəti olaraq neqativ və ya pozitiv olmasını müəyyənləşdirmək çətinlik doğurur.

Konfliktin əmələ gəlməsi və inkişafının gedişində obyektiv ziddiyyətlərlə yanaşı, subyektiv amillər də əsas yer tutur. Konfliktin məzmunu ilə onun iştirakçılarının maraqları və məqsədləri ayrılmazdır. Konfliktlərdə həmçinin siyasi maraqlar iqtisadi maraqları da əks etdirir. Konfliktin strukturunda siyasi münasibətlər digər münasibətlərlə iqtisadi, ideoloji, sosial, beynəlxalq hüquqi, hərbi, diplomatik münasibətlərlə birlikdə çıxış edir.

Sosial konfliktlərin əsas məqsədi ziddiyyətləri üzə çıxarmaq və həll etməkdir. Onun funksiyalarının müsbət və mənfi olması konfliktin baş verdiyi cəmiyyətlərlə əlaqədardır. Demokratik sistemlərdə konfliktlər normal qarşılanır və onun həlli və tənzimlənməsi nəticəsində cəmiyyətdə irəliləyiş baş verir. Totalitar cəmiyyətlərdə isə konfliktlər zorla həll edilir. Sosial konfliktlər zamanı qarşı-qarşıya duran insanlar, qruplar, siniflər və millətlər arasında barışmaz mübarizə gedir. Konflikt ictimai rəy səviyyəsində arzuolunmaz hadisə kimi qiymətləndirilir. Bəziləri belə hesab edirlər ki, konfliktlər zəruri deyil, faydalı sosial hadisədir.

Konfliktlər siqnal, informasiya və differensiallaşmış funksiyaları da yerinə yetirir [18, 92-101]. Konfliktlərin əksəriyyəti o zaman kompromislə başa çatır ki, bu və ya digər tərəfin üstünlüyünü çətin müyyənləşdirmək olur. Aydındır ki, tərəflər öz aralarında sülh sazişi bağlamaq, özünü məğlub edilmiş hesab etmək arzularını bildirməlidir. Sonda onu göstərmək olar ki, qarşı duran tərəflərin potensialının müqayisəli qiymtləndirilməsi, çox zaman yalnız konfliktin gedişində mümkün olur.

## ƏDƏBİYYAT


1. Амелин Н.В. Социология политики. М.: АСТ, 1992, 130 с
2. Dale R. Polyarchy-Pentiepation and opposition. Volo U.R. New nayev, 1977, 270 p.
3. Darendorf R. The modern Social conflict London, 1958, 105 p.
4. Дмитриев А. Конфликтология. М.: Гардарики, 2000, 340 с.
5. Здравомыслов А.Г. Социология конфликта, М.: Аспект Прес, 1995, 319 с.
6. Желтухин А.И. Социологическая концепция конфликта // Социологические исследования. 1994, т.2, с.140-144
7. Əliyev Q., Dayızadə H. Konfliktologiyaya giriş. Bakı: Təbib, 1998, 121s.
8. International social. Science Journal UNESCO R. 1988,256 p.
9. Козер Л.А. Функции социального конфликта // Социальный конфликт: современные исследования. М.: ЦИНИОН СССР, 1991, с. 22-27.
10. Козырев Т.И. Введение в конфликтологию. М.: ВЛАДОС, 1999, 218 с.
11. Конфликты и консенсус. 1993. № 1-4.

12. Конфликтология // В.П.Ратников, В.Ф.Голубь, Г.С. Лукашова и.др. М.: ЮНИТИ ДАНА, 2001, 512 с.
13. Лавриненко В.Н. Социология. М.: ЮНИТИ, 1998, 305 с.
14. Məmmədzadə R. Konfliktlər. Ailələr. Məktəblər. Bakı: Müəllim, 2004, 140 s.
15. Mustafayev A.X. Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi (dərs vəsaiti). Bakı: Nafta-Press, 2000, 57 s.
16. Фукуяма Ф. Конец истории // Вопросы Философии, 1990. №5, с.134-141
17. Freyd S. Psycho-Analysis//Collected papers. London 1975, The Prez, 150 p.
18. Платон А.Порядок мира-в боге и в человеке // Этика ненасилия. М.: ФО СССР, 1991, с. 98-104. Петропавловский Р. Для ненасилия нужна зрелость // Этика ненасилия. М.: ФО СССР, 1991, с. 110-118.
19. Şəfiyev Üzeyir. Konfliktlərin sosioloji təhlili. Bakı: BDU; 1999, s.170
20. Şükürov A. Qloballaşma: mahiyyəti və perspektivləri. Bakı: Adiloğlu, 170 s.

## ФИЛОСОФСКАЯ СУЩНОСТЬ, СТРУКТУРА И ФУНКЦИИ СОЦИАЛЬНЫХ КОНФЛИКТОВ

**А.А.АШИРОВ**

### РЕЗЮМЕ

В статье анализируются различные подходы к философской сущности социальных конфликтов. Подчеркивается, что они, являясь важнейшей стороной всех социальных процессов, выступают необходимым условием их развития. Одновременно выявляются функции конфликтов по регулированию имеющихся в обществе субъективно-объективных противоречий.

В работе основное внимание уделяется раскрытию межличностных, экономических, социально-политических, межэтнических и межгосударственных форм социальных конфликтов.

**Ключевые слова:** социальный конфликт, структура, функция, противоречия, противостояние, примирение,

## PHILOSOPHICAL ESSENCE OF STRUCTURE AND FUNCTIONS OF SOCIAL CONFLICTS

**A.A.ASHIROV**

### SUMMARY

The article shows that social philosophy exposes various approaches to the concept of conflict. Conflicts are largely determined by social contradictions. The author notes that conflicts in any social structure are inevitable processes, the societies where social development is a necessary condition, where conflicts and consensus, armistice and confrontation make a unity witness there are subjective-objective contradictions. The following types of conflicts are distinguished: intrapersonal, interpersonal, family conflicts, socio-labor, socio-economic, socio-political conflicts, interethnic, international, interstate, international conflicts, false, potential, true, constructive, mixed conflicts that carry out positive, negative, obvious, latent, constructive, destructive functions.

**Key words:** social conflict, functions, contradictions, confrontation, reconciliation